

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 72 (21.733)

18 aprel 2017-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə aprelin 17-də Yevlaxda qeyri-neft ixracatçılarının respublika müşavirəsi keçirilib.

Dövlətimizin başçısı müşavirədə çıxış edib.

Prezident İlham Əliyev bildirib ki, müşavirədən sonra bizim qeyri-neft ixracımız artacaq. Bunu deməyə əsas var. Çünki son illər ərzində Azərbaycanda ciddi islahatlar aparılıb, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları qəbul edilib, sahibkarlara dövlət tərəfindən böyük dəstək göstərilib və göstərilir. Beləliklə, biz qeyri-neft ixracının artırılmasına nail ola bilmişik. Birinci müşavirə Yevlax rayonunda keçirilir.

Dövlət başçısı vurğulayıb ki, dövlət siyasəti, sahibkarlığa göstərilən həm siyasi dəstək, mənəvi dəstək, maliyyə dəstəyi və sahibkarlığın inkişafı üçün aparılan ciddi islahatlar və onlara edilən güzəştlər bu gün Azərbaycanda qeyri-neft sektorunun inkişafına təkan verən əsas amillərdən biridir. Azərbaycan öz iqtisadi potensialını şaxələndirə bilib. Hazırda qeyri-neft sektorumuz iqtisadiyyatımızın təxminən 65 faizini təmin edir.

* * *

Aprelin 17-də Yevlax şəhərində Aran Regional İnkişaf Mərkəzinin təqdimatı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təqdimat mərasimində iştirak edib.

Sonra dövlətimizin başçısı Aran Regional İnkişaf Mərkəzinin foyesində təşkil edilmiş ixracyönümlü qeyri-neft məhsullarının sərgisi ilə tanış olub.




## M.P.Sultanovanın "Şərq qapısı" qəzetinin baş redaktoru təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mehriban Paşa qızı Sultanova "Şərq qapısı" qəzetinin baş redaktoru təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 15 aprel 2017-ci il*

## N.M.Məmmədova "Əməkdar dövlət qulluqçusu" fəxri adının verilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Nazim Məmməd oğlu Məmmədova **"Əməkdar dövlət qulluqçusu"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 15 aprel 2017-ci il*

## Naxçıvanda görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın xatirəsi anılıb



***Aprelin 15-də Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva və səhiyyə işçiləri akademik Zərifə xanım Əliyevanın adını daşıyan Naxçıvan Şəhər Poliklinikasında görkəmli alimin büstü önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla yad ediblər.***

Sonra tədbir iştirakçıları Zərifə xanımın həyat və fəaliyyətini əks etdirən məlumatlar, fotoşəkillər və kitablarla tanış olublar.

Zəriflik və nəciblik mücəssəməsi olan Zərifə Əliyevanın xalqımız qarşısındakı xidmətləri, əhalinin sağlamlığının qorunması istiqamətində gördüyü işlər bir daha xatırlanıb.

Zərifə xanım Əliyeva dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və praktik olaraq elm aləmində yeni bir istiqamətin – "peşə oftalmologiyası"nın əsasını qoyub. Bu mənada, oftalmologiyada peşə xəstəlikləri probleminin öyrənilməsi böyük alimin adı ilə bağlıdır. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqatları ona böyük şöhrət gətirib.

Böyük elm fədaisi, insanların təkcə gözlərinə yox, həm də şüuruna, taleyinə nur saçan akademik Zərifə xanım Əliyevanın xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaqdır.

* * *

***Azərbaycan səhiyyəsinin və tibb təhsili sisteminin mahir təşkilatçısı, qurucusu və yaradıcılarından olan görkəmli dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım Əliyeva həkimlik sənətinə kiçik yaşlarından həvəs göstərmişdir. Onun uşaqlıq çağlarının ilk illəri Kəngərli rayonunun Şahtaxtı kəndində keçmiş, sonra ailəsi ilə birlikdə Bakıya köçmüşdür.***

Həyatını Azərbaycan mədəniyyətinin, musiqisinin, elminin inkişafına həsr edən böyük söz və sənət adamları – görkəmli şəxsiyyətlərlə ailəvi və mənəvi yaxınlıq telləri ilə sıx bağlı olan bir mühitdə boya-başa çatan Zərifə xanım zaman keçdikcə özündə Azərbaycan ziyalısının ən gözəl nümunəsini təcəssüm etdirmişdir. Zərifə xanım təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməmiş, yüksəkixtisaslı gənc alim kadrların yetişdirilməsinə və oftalmoloq həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirmişdir. Hazırda Kəngərli rayonunun Şahtaxtı kənd tam orta məktəbi də görkəmli alimin adını daşıyır.



Aprelin 15-də akademik Zərifə xanım Əliyevanın anım günü ilə bağlı onun adını daşıyan Şahtaxtı kənd tam orta məktəbində tədbir keçirilib. Əvvəlcə Naxçıvan Muxtar Respublikası təhsil naziri Məmməd Qəribov və tədbir iştirakçıları akademikin məktəbin foyesində yerləşən büstünün önünə gələrək görkəmli oftalmoloqun xatirəsini ehtiramla yad ediblər, büstün önünə gül dəstələri düzüblər.

Sonra tədbir iştirakçıları məktəbdəki muzeydə Zərifə xanım Əliyevanın həyat və fəaliyyətini əks etdirən eksponatlara baxıblar.

**Nail ƏSGƏROV**

## Naxçıvan Dövlət Universiteti beynəlxalq layihələrdə uğurla təmsil olunur



***Bir sıra beynəlxalq layihələrdə təmsil olunan Naxçıvan Dövlət Universitetinin tərəfdaşı olduğu Erasmus+ proqramının əsas məqsədi tərəfdaş ölkələrdəki təhsil müəssisələri ilə Avropadakı universitetlər arasında əməkdaşlığı inkişaf etdirməkdən ibarətdir.***

Martın 16 və 17-də Erasmus+ proqramının "Ombudsman vəzifəsi yaratmaqla tələbələrin təmsili təyin olunması" ("Advocacy Establishment for Students through Ombudsman Position" – AESOP) layihəsi çərçivəsində layihənin regional tərəfdaşları arasında Xəzər Universitetində reallaşan ilk görüşündə Naxçıvan Dövlət Universiteti də tərəfdaş kimi təmsil olunub. Naxçıvan Dövlət Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru Seymur Talıbov və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Röya Səfərova görüşdə iştirak edərək sorğu nəticələri haqqında məlumat veriblər. Görüş zamanı nümayəndələr ehtiyacların qiymətləndirilməsi mövzusunda universitetlərdə aparılan sorğuların nəticələrini diqqətə çatdırıblar.

Aprelin 4-5 və 6-da isə Naxçıvan Dövlət Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru Seymur Talıbov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Röya Səfərova, İngilis dili və tərcüməsi kafedrasının müdiri Ceyran Quliyeva AESOP Erasmus+ layihəsi iştirakçılarının Varşava şəhərində keçirilən növbəti görüşündə iştirak ediblər. Layihənin regional tərəfdaşlarının görüşünün əsas məqsədi Varşava Universitetinin Ombudsman ofisinin fəaliyyəti ilə tanış olmaq və onların təcrübələrini öyrənməkdən ibarət olub.

Görüşdə beynəlxalq əməkdaşlıqla bağlı müzakirələr aparılıb.

**"Şərq qapısı"**







*18 aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür*

# Tarix və memarlıq abidələri milli sərvətimizdir

***YUNESKO-nun Abidələrin Mühafizəsi Məsələləri üzrə Beynəlxalq Şurasının qərarı ilə 1982-ci ildən etibarən hər il aprelin 18-i dünyada "Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü" kimi qeyd olunur.***

Tarixi abidələr hər bir xalqın konkret coğrafi məkanda min illər, əsrlər boyu formalaşdığını, təşəkkül tapdığını təsdiq edən yeganə mənbələrdir. Müdriklərimiz demişkən, rəvayətlər susanda və əlyazmalar itəndə daşlar danışır. Azərbaycan xalqının qədim mədəni sərvətləri içərisində tarix və memarlıq abidələri xüsusi yer tutur. Azərbaycan mədəniyyətinin əhəmiyyətli nümunələri olan bu abidələr mədəniyyət tariximizin öyrənilməsində mühüm mənbələrdən sayılır. Tarix və mədəniyyət abidələrimiz xalqımızın minilliklər boyu bu torpaqlarda yaşadığını sübut edən, maddi və mənəvi həyatımızın, tariximizin daşlaşmış yadigarlarıdır.



Azərbaycan xalqının mədəni irsi kimi abidələr minilliklərin sənətkarlıq xüsusiyyətlərini, təfəkkür və düşüncə tərzini, dövrün mədəni mühitini bu günə daşıdığı üçün həm də bəşər mədəniyyətinin ayrılmaz bir hissəsi kimi beynəlxalq əhəmiyyət kəsb edir.

Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə xalqımızın tarixinin öyrənilməsi, tarixi-mədəni irsinin qorunub saxlanılması sahəsində mühüm işlər görülmüşdür. ***"Tarix və mədəniyyət abidələri xalqın milli sərvətidir"***, – deyən ulu öndərin rəhbərliyi ilə bu sahədə dövlət siyasətini həyata keçirmək üçün zəngin qanunvericilik bazası yaradılmışdır. Azərbaycan Respublikası Konstitusiyasında tarix və mədəniyyət abidələrini qorumaq hər bir vətəndaşın vəzifəsi kimi müəyyənləşdirilmişdir. 1998-ci ildə qəbul edilən "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununda da tarixi abidələrin qorunmasının dövlət təminatı, tədqiqi, mühafizəsi, qanunvericiliyin pozulmasına görə məsuliyyət öz əksini tapmışdır.

Bu gün ümummilli liderimizin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən tarixi abidələrimizin bərpası, qorunması, tədqiqi və təbliği sahəsində mühüm işlər həyata keçirilir. Son illər tarix və mədəniyyət abidələrimizin bərpasına diqqət və qayğı artırılmış, dünya əhəmiyyətli abidələrin bir neçəsi YUNESKO-nun Dünya Mədəni İrs Siyahısına salınmışdır. Ölkə Prezidentinin 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq olunan "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"nda tarixi abidələrin qorunması, bərpası, öyrənilməsi və təbliği üzrə konkret tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycanın, o cümlədən dünyanın ən qədim yaşayış və mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan min illərin tarixini yaşadan qədim yaşayış yerləri baxımından səyyahları, alimləri, tədqiqatçıları özünə cəlb edən bir məkan kimi tanınmışdır. Qədim diyarımızın ərazisindəki mağaralar, qalalar, qədim yaşayış yerləri, qayaüstü rəsmlər, daş qoç heykəlləri və türbələr bu torpaqda tarixin və mədəniyyətin qədimliyini göstərir. Gəmiqaya abidəsi Naxçıvanın ilkin yaşayış məskəni olmasını elmi və tarixi əsaslarla təsdiq etməklə xalqımızın ən qədim dövr incəsənətinin, mənəvi və maddi-mədəniyyət nümunələrini bu günə daşıyan əvəzsiz tarixi abidədir. Gəmiqaya daşları üzərində həkk olunmuş müxtəlif kompozisiyalı təsvirlər, həndəsi işarələr, piktoqrafik yazılar əcdadlarımızın dünyagörüşünün və təsəvvürlərinin, yaşam tərzinin tariximizin minilliklərin dərinliyindən bu günə çatdırılması baxımından dəyərli mənbələrdir. Naxçıvan ərazisində mövcud olan Qazma mağarası, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi, Kilit mağarası, I və II Kültəpə, Xarabagilan, Quyulu dağ, Qarabağlar Türbə Kompleksi, Möminə xatın, Yusif Küseyiroğlu, Gülüstan türbələri, Əlincə qalası, Qızılburun, Qızqala, Ovçular təpəsi, Oğlanqala, Xələc, Naxçıvanqala, tarixi təbiət abidələrindən Haçadağ, Duzdağ, Batabat, Babək qalası, Dəvəboynu və yüzlərlə başqa abidələr keçmişimizi bu günə daşıyan tarixi yaddaşımızdır. Ümummilli liderimiz Heydər Əliyev Naxçıvanın hər daşının, hər qayasının tarixin canlı şahidi olduğunu bildirərək demişdir: ***"Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır. Bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm mədəniyyətini, həm də adət-ənənələrini göstərən abidələrdir".***



Naxçıvan Muxtar Respublikasında 20 il bundan əvvəl tarix və mədəniyyət abidələrinin qorunması, təbliği və tədqiqi istiqamətində başlanan



ardıcıl tədbirlər öz bəhrəsini verməkdədir. Ali Məclis Sədrinin 2001-ci il aprelin 26-da imzaladığı "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" Sərəncamından sonra Gəmiqaya rəsmləri elmi əsaslarla öyrənilmiş, bu mövzuda onlarla elmi məqalə və kitablar yazılmışdır. 2005-ci ildə Gəmiqaya abidəsinə beynəlxalq ekspedisiya təşkil edilmiş, Gəmiqaya ətrafındakı arxeoloji abidələrdə tədqiqatlar aparılaraq etnoqrafik, folklor və onomastik materiallar toplanmışdır. Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamı isə muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələrinin tədqiqində yeni mərhələnin başlanğıcını qoymuşdur. 2006-2016-cı illərdə muxtar respublikada 1200-dən çox abidə qeydə alınaraq pasportlaşdırılmışdır.

Abidələrə, xalqın, torpağın canlı yaddaşı sayılan tarixi-mədəni incilərə diqqət muxtar respublikamızda onların bərpası istiqamətində də həyata keçirilir. Son illər Möminə xatın türbəsi konservasiya edilmiş, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində yenidənqurma işləri aparılmış, Yusif Küseyiroğlu və Nuh türbələri, imamzadələr, muxtar respublika ərazisindəki buzxana abidələri, "Came" məscidi, Zaviyə mədrəsəsi, İsmayılxan hamamı, Xan sarayı, Culfa rayonundakı Xanəgah Abidə Kompleksi, Ordubad rayonundakı Aza körpüsü, Qeysəriyyə, Naxçıvanqala və digər tarixi abidələr əsaslı bərpa olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı ildə "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü abidəsinin bərpa edilməsi haqqında", 2010-cu ildə "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında", 2011-ci ildə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin yaradılması haqqında", 2013-cü ildə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında", 2014-cü ildə "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında", 2015-ci ildə "Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında", 2016-cı ildə "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" imzaladığı sərəncamlar tarixi-mədəni irsimizin öyrənilməsi, qorunması, tədqiqi və təbliği baxımından mühüm əhəmiyyətə malik olan dövlət sənədləridir. Ümumiyyətlə, son 20 ildə muxtar respublikada 60-dan çox tarix və mədəniyyət abidəsi əsaslı təmir və bərpa olunmuşdur. 2016-cı il bu sahədə xüsusilə əlamətdar olmuşdur. Azərbaycan xalqının əyilməzlik rəmzi olan Əlincəqalada, Azərbaycan memarlığının əvəzsiz nümunələrindən sayılan Gülüstan türbəsində, Şərur rayonunun Xanlıqlar kəndindəki Parçı imamzadəsində bərpa işləri yüksək səviyyədə başa çatmışdır. Hazırda XII-XIV əsrlərə aid Qarabağlar Türbə Kompleksində, Şərur rayonunun Yengicə kəndində XVIII-XIX əsrlərə aid hamamın bərpa işləri davam etdirilir.

Naxçıvanın abidələri bu qədim yurdun tarixi keçmişini özündə yaşatmaqla bərabər, həm də müasir dövrdə turizm potensialının artmasına xidmət edir. Bu gün Naxçıvan tarixi abidələr və görməli yerlər üzrə səyahət turizminin ən ideal məkanlarındandır. Naxçıvana səfər edən hər bir qonaq buradan xoş təəssüratlarla ayrılır. Muxtar respublikada tarixi abidələrin bərpası, geniş tədqiqi və təbliği turistlər tərəfindən də rəğbətlə qarşılanır.

Muxtar respublikada tarixi abidələrin tədqiqi və beynəlxalq miqyasda təbliği istiqamətində həyata keçirilən ardıcıl tədbirlər artıq öz bəhrəsini verir, Naxçıvan dünyada ilkin yaşayış məskənlərindən biri kimi qəbul edilir. 1996-cı ildə "Uluslararası qaynaqlarda Naxçıvan", 2009-cu ildə "Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan", 2011-ci ildə "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi", 2012-ci ildə "Naxçıvan: ilkin şəhər və Duzdağ", 2016-cı ildə "Naxçıvan qalaları: tarixdə və günümüzdə" mövzularında beynəlxalq simpoziumların və konfransların keçirilməsi bu mənada mühüm əhəmiyyətə malikdir. Bu simpoziumlar alimlərimizin xarici ölkələrin aparıcı elmi müəssisə və mütəxəssislərinin iştirakı ilə Naxçıvan tarixinə, arxeologiyasına, etnoqrafiyasına və folkloruna dair tədqiqatlar aparmasına, ekspedisiyaların təşkil olunmasına, müxtəlif mövzularda kitab, monoqrafiya, dərslik və elmi məqalələrin nəşr edilməsinə əsaslı təkan vermiş, beş minillik tarixə malik Naxçıvan şəhər mədəniyyəti tədqiqat mövzusuna çevrilmişdir. Muxtar respublikada aparılan arxeoloji ekspedisiyalarda ABŞ, Fransa, Türkiyə, Macarıstan və başqa ölkələrin də arxeoloqları iştirak edirlər. Son illər I Kültəpə, Qızqala, Oğlanqala, Xarabagilan, Şorsu, Zirincik abidələrində arxeoloji qazıntılar aparılmışdır. Aparılan tədqiqatların nəticəsi və elmi sübutu olaraq 2008-ci ildə "Naxçıvan Abidələri Ensiklopediyası"nın nəşr olunması yalnız Naxçıvanın deyil, bütövlükdə, Azərbaycanın mədəniyyət tarixində mühüm hadisədir. "Naxçıvan tarixi atlası", "Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan", "Naxçıvanda arxeoloji tədqiqatlar", "Naxçıvan tarixi" çoxcildliyi, "Gülüstan türbəsi", "Əlincəqala" və başqa çoxsaylı elmi kitablar da Naxçıvan tarixi ilə yanaşı, həm də bu qədim diyardakı abidələrin öyrənilməsi baxımından əvəzolunmaz elmi mənbələrdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Hər bir yerin tarixi yalnız kitablarda deyil, onun torpağında, tikililərində, abidələrində yaşayır. Tarixini, Vətənini sevən insanlar abidələri qoruyub gələcək nəsillərə ötürməlidir. Hər birimiz tariximizlə qürur hissi keçirməli, bütün dünyaya göstərməliyik ki, ulu babalarımız, əcdadlarımız belə zəngin tarixə malik olublar".***

***Abidələr əzəmətli memarlıq zənginliyi ilə yanaşı, qədim tariximizin, möhtəşəm dövlətçilik ənənələrimizin, yüksək mədəniyyətimizin göstəricisidir. Tariximizi, milli-mənəvi dəyərlərimizi əks etdirən tarix və memarlıq abidələrinin öyrənilməsi, təbliği, qorunması və gələcək nəsillərə çatdırılması o zaman uğurlu olur ki, bu məsələ ümumxalq işinə çevrilmiş olsun. Ölkəmizdə, o cümlədən qədim diyarımızda bunun üçün bütün imkan və şərait mövcuddur. Tarixi-mədəni irsi qorumaq isə hər birimizin vətəndaşlıq borcudur.***

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti*



***“Cari ilin may ayında gözlənilməz şad bir xəbər naxçıvanlıları sevindirdi. Şəhər başçısının Qafqaz tədris mahalı hamisindən aldığı və ictimaiyyətə elan etdiyi teleqramda deyilirdi ki, Naxçıvanımda altı sinifli kişi gimnaziyası açmaq məsələləri prinsip etibarı ilə tamamilə həll edilmişdir. Lakin bu şərtlə ki, şəhər əhalisi birdəfəlik yardım olaraq 5000 manat və hər il 2000 manat vəsait verməli və gimnaziya binasını tikmək üçün yer ayırmalıdır”.***

### Təhsil millətin gələcəyidir

## Qabaqcıl məktəbin əldə etdiyi uğurlar qürur doğurur

Bu sətirlər XX əsr Azərbaycan ədəbiyyatı, mətbuatı, teatrı və ictimai fikir tarixində özünəməxsus yer tutan ziyalılardan biri olan Eynəli bəy Sultanovun sonsuz bir sevinclə Naxçıvan şəhərində məktəb açılacağı haqda yazan qələminin məhsuludur. O Eynəli bəyin ki, hələ 1882-ci ildə öz evində “Ziyalılar cəmiyyəti” təşkil edərək şəhərin bütün tərəqqipərvər insanlarını bu cəmiyyətin işığına toplamışdı, doğma şəhəri haqda danışanda “Naxçıvanımda” demişdi. Bəli, bu böyük insanın, əsl maarif fədaisinin ən böyük arzularından biri xalqının bütün nümayəndələrini təhsilli görmək idi.

Ömrünü xalqının maariflənməsi yolunda şam kimi əridən insanın arzuları bu gün yerinə yetib. İndi Naxçıvanda təhsilə cəlb olunmayan uşaq yoxdur, hər kənddə, hər şəhərdə ən müasir məktəb binaları istifadəyə verilib, bu bilik məktəbləri texnologiyanın yaratdığı sərhədsiz imkanlardan maksimum şəkildə yararlanırlar. Onlardan biri də ötən ay Şərur şəhərində istifadəyə verilən, öz möhtəşəm görüntüsü ilə şəhərə xüsusi gözəllik verən 2 nömrəli tam orta məktəbin binasıdır. Bu məktəb binası doğma Naxçıvanımızda gələcəyimiz olan uşaqların hərtərəfli böyüməsinə göstərilən diqqətin və təhsilə verilən dəyərin bariz nümunəsidir.

...Ötən ay Şərur şəhərinin sakinlərini övladlarının gələcəyi baxımından çox önəmli bir xəbər sevindirdi; şəhərdə yeni məktəb binası istifadəyə veriləcək. Onların bir çoxunu həm də məktəbin malik olduğu maddi-texniki baza maraqlandırırdı. Bu məktəblə tanışlıq arzusu qısa zamanda yerinə yetdi. Belə ki, martın 27-də təhsilimiz üçün əvəzolunmaz işlər görmüş, səbat və qətiyyət göstərmiş muxtar respublika rəhbərinin iştirakı ilə yeni məktəb binası qapılarını müəllim və şagirdlərin üzünə açdı. Bu tikili istər xarici, istərsə də interyer dizaynına görə məktəbdən daha çox, universitet binasına, akademiya institutlarından birinə bənzəyir. Bu fikirdə olan Şərur şəhərinə gələn qonaqlar da qeyd edirdilər ki, bu bina böyük şəhərlərdəki əzəmətli tikililərdən heç nə ilə fərqlənmir. Həqiqətən də Şərur şəhər 2 nömrəli tam orta məktəbin yeni binası ötən illər ərzində muxtar respublikada təhsil infrastrukturu quruculuğu sahəsində görülən işlərin növbəti əzəmətli bir nümunəsi kimi diqqəti cəlb edir.

Ötən günlərdə həmin məktəbə baş çəkməyi qərara aldıq. Qeyd edək ki, muxtar respublikanın qabaqcıl təhsil ocaqları sırasında olan bu bilik məbədində gələcək perspektiv nəzərə alınaraq 1020 şagirdə elmin sirlərinə dərindən yiyələnməsi üçün hər cür şərait yaradılıb. 5-i elektron lövhəli olmaqla, 50 sinif, müəllimlər üçün geniş otaqlar, 2 şahmat sinfi, tibb otağı, bufet, idman zalı, açıq idman qurğuları və mini-futbol meydançası olan bu məktəblə tanış olanda istər-istəməz ulu öndərimizin ***“Dövlət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir”*** fikri yada düşür. Bu bilik məbədinin ən müasir avadanlıq və ləvazimatlarla, dünyanın qabaqcıl ölkələrinin təhsil sistemində tətbiq olunan əyani vəsaitlərlə təchiz edilən kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə ilə təmin olunması gələcəyimiz olan uşaqlara dövlətimiz tərəfindən göstərilən böyük qayğıdan xəbər verir.

Günümüzdə diyarımızın bilik məbədləri qoynunda qiymətli xəzinələrə yer verilib. Bunlar dünyanın min bir sirrini özündə saxlayan kitabların yer aldığı kitabxanalardır. Qonağı olduğumuz Şərur şəhər 2 nömrəli tam orta məktəbin kitabxanasında 8 min 973-ü dərslik, 10 min 245-i isə bədii ədəbiyyat olmaqla, 20 minə yaxın ədəbiyyat toplanılıb. İndi bu hikmət xəzinəsindən hər bir şagird günün istənilən saatında istifadə edə, kitabların sonsuz faydalarından bəhrələnərək mənəvi dünyasını zənginləşdirə bilər. Sovetlər dövründə bir rayon üzrə bu qədər sayda kitab olmadığı halda, indi təkcə bir məktəb kitabxanasında dünyanın müxtəlif ölkələrinin şair və yazıçılarının əsərlərinin bir araya toplanması uşaqlar üçün dünyanın söz və sənət üfüqlərinin sonuna qədər açılmasından xəbər verir. Bəli, bu kitabxana dünyaya açılan geniş bir pəncərədir. Hər bir məktəbli üçün bircə o qalır ki, bu pəncərədən dünyaya boylansın, dünəndən bu günə gələn yolda nələrin baş verdiyindən agah olsun, xalqını, insanları, ən əsası isə özünü tanısın, vətənsevər yetişsin. Səlis nitqə, məntiqə, hərtərəfli biliyə, aydın təfəkkürə, sərbəst düşüncəyə, xoş ünsiyyətə malik bir vətəndaş kimi böyüsün.





Bu gün məktəbdə 4 kompüter otağı, 84 kompüter var, onların internetin sərhədsiz məkanına çıxışı təmin edilib. Yeni texnologiyalar məktəbdə distant tədrisin tətbiqinə və interaktiv dərslərin keçilməsinə də imkan yaradıb. Elektron lövhəli siniflərdə muxtar respublikanın bütün muzeyləri ilə əlaqə qurmaq, keçilən distant dərsləri izləmək üçün hər cür şərait var. Elektron lövhədə şagirdlər müxtəlif fənlərə aid dərsləri əyani şəkildə öyrənirlər. Test tapşırıqları elektron lövhə vasitəsilə şagirdlərə mənimsədilir. Elektron lövhədə mətnlərlə yanaşı, şəkillərin və videomaterialların da göstərilməsi şagirdlərin keçilən dərsi daha yaxşı qavramalarına imkan verir. Təhsil ocağının laboratoriyaları zənginliyi və müasirliyi ilə diqqəti cəlb edir. Dəqiq elmlərin tədrisi zamanı müasir laboratoriyaların imkanlarından istifadə olunması nəzəri biliklərin praktik vərdişlərlə möhkəmləndirilməsinə geniş imkanlar açır.

800-ə yaxın şagirdin təhsil aldığı məktəbdə 120 müəllim çalışır, tədrisin yüksək səviyyədə aparılmasına səy göstərirlər. Onu da qeyd edək ki, bu tədris ilində birinci sinfə 88 şagird qəbul edilib. İndi bu körpə fidanlar geniş və işıqlı siniflərdə bilik dünyasına kövrək addımlarını atır, oxuyur, öyrənirlər. Məktəbin kollektivi nümunəvi fəaliyyəti ilə də göz önündədir. Bunun nəticəsidir ki, ötən il məktəbin məzunlarından 35-i ali məktəbə, 6-sı isə orta ixtisas məktəbinə qəbul edilib. Məzunlardan 8-i 500-700 arası bal toplayıb. Dövlətimiz tərəfindən müəllim əməyinə yüksək qiymət verilir, diaqnostik qiymətləndirmə aparılır, müəllimlər fəxri adlarla təltif olunurlar. Şərur şəhər 2 nömrəli tam orta məktəbin müəllimlərindən 1-i Azərbaycan Respublikasının, 3-ü isə Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi fəxri adına layiq görülüb.





Məktəbin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Sevil Hacıyeva ilə məktəbin dəhlizində söhbət edirik. Onu da qeyd edək ki, Sevil Hacıyeva və məktəbin daha bir müəllimi Nəsibə Zeynalova iki sevinci bir arada yaşayıblar. Yeni məktəb binasının istifadəyə verilməsindən sonra hər iki pedaqoqun əməyi muxtar respublika rəhbəri tərəfindən yüksək qiymətləndirilib və onlar fəxri adlara layiq görülüblər. Artıq 30 ildir pedaqoji fəaliyyətlə məşğul olduğunu, ona göstərilən etimada görə minnətdarlığını bildirən Sevil Hacıyeva deyir ki, təhsilin inkişafı gənclərin gələcəyə hazırlanması deməkdir. Əgər muxtar respublikamızda bunun üçün məqsədyönlü tədbirlər görülürsə, biz müəllimlər də yaradılan şərait müqabilində vətənpərvər, təhsilli, yüksək intellektual səviyyəyə malik gənclər yetişdirməliyik. Həm də elə etməliyik ki, hər bir şagird, hər bir məzun onun təhsil alması yolunda çəkilən əziyyətlərin qədir-qiymətini yaxşı bilsin, təkcə bu gün ilə yox, gələcək ilə yaşasın, Azərbaycanın parlaq gələcəyi üçün çalışsın.



Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Nəsibə Zeynalova da onlara ərməğan edilən yeni məktəb binasına və ona verilən fəxri ada görə muxtar respublika rəhbərinə dərin minnətdarlığını bildirərək qeyd etdi ki, bu gün doğma diyarımızda ulu öndərimizin əsasını qoyduğu təhsil siyasəti uğurla davam etdirilir, təhsil infrastrukturu yenilənir, bu da uğurları bərabərində gətirir. Həm də bütün bu işlər muxtar respublikanın blokadada olduğu bir şəraitdə, dünyanı bürüyən iqtisadi böhranın fonunda görülür. Bu isə sübut edir ki, dövlətimiz nəyin bahasına olursa-olsun, xalqımızın gələcəyi olan uşaqların, onların yaxşı təhsil alması üçün gərgin əmək sərf edən təhsil işçilərinin yanındadır. Bu, hər bir müəllimi ruhlandırır, məhsuldar fəaliyyətə sövq edir. Çalışacağıq ki, göstərilən qayğının müqabilində daha yaxşı işləyərək, məktəbimizin uğurlarını artıraq. Şərur şəhər 2 nömrəli tam orta məktəbin nailiyyətləri muxtar respublikanın ümumi orta göstəricisindən yüksəkdir. Ancaq biz bunlarla kifayətlənə bilmərik. Əminəm ki, müəllim və şagirdlər üçün yaradılan nümunəvi şərait bəhrəsini verəcək, qarşıdan gələn qəbul imtahanlarını məktəbimizin məzunları yüksək göstəricilərlə başa vuracaqlar.

Hər şəhər övladını bu təhsil ocağına yola salan valideynlərin də yeni məktəb binasının istifadəyə verilməsi ilə bağlı deyiləcək sözü, xoş təəssüratdan doğan fikirləri az deyil. Elə bu səbəbdəndir ki, mətbuat nümayəndəsi olduğumuzu bilib bizə yaxınlaşaraq xoş sözlərini bu işdə əməyi olan hər kəsə çatdırmağı xahiş edənlər də az olmadı. Valideynlərdən Arzu Hüseynova, Zakir Bayramov, İlham Bədəlov, Qulu Quliyev və başqaları övladlarının belə bir məktəbdə təhsil almasından haqlı qürur hissi keçirdiklərini vurğuladılar. Bildirdilər ki, övladlarımızın gələcəyini etibarlı əllərə təslim etdiyimiz üçün arxayınıq və onlar böyüyüb Vətənə, xalqa layiqli övlad olacaqlar.

*Bəli, Azərbaycan xalqı tarixi şəxsiyyətlərini, Vətəni üçün çalışan insanları, maarifpərvər ziyalıları heç vaxt unutmur. Çünki onlar bu dünyada bir çoxlarına qismət olmayan əbədiyaşarlıq qazanıblar. Bu haqqı onlara öz əməlləri verib. Bu gün də xalqın gələcəyi üçün çalışanlar, fikirdə, sözdə və əməldə birlik nümayiş etdirənlər, xalqa təmənnasız xidmət göstərənlər, əsl maarifpərvərlər xalqın yaddaşında əbədi yaşayacaqlar.*

**Səbuhi HÜSEYNOV**

## Orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanları keçirilib



Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi aprelin 16-da ümumi (9 illik) orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyən əvvəlki illərin məzunları, o cümlədən eksternat qaydasına yekun qiymətləndirmədə (attestasiya) iştirak edən və ya üzrlü səbəbdən 9-cu sinif buraxılış imtahanının 1-ci mərhələsində iştirak edə bilməyən şagirdlər üçün imtahanlar keçirib.

İmtahanlar Bakı, Sumqayıt, Naxçıvan, Gəncə, Şəki, Şirvan, Göyçay, Xaçmaz, Bərdə və Lənkəran şəhərlərində təşkil olunub.

Naxçıvan Muxtar Respublikasında ümumi orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanının birinci mərhələsinə imtahan Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbin binasında keçirilib. İmtahan üçün 44 nəzarətçi, 4 rəhbər, 1 ümumi rəhbər və 4 mühafizəçi təyin olunub. Saat $13^{00}$-da başlayan imtahan $15^{00}$-da başa çatıb. İmtahanda 511 namizəd iştirak edib.

Qeyd edək ki, ümumi təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanı 2 mərhələdə həyata keçiriləcək. Birinci mərhələdə abituriyentlərə Azərbaycan dili fənnindən oxuyub-anlama və yazı bacarıqlarını yoxlamaq məqsədilə 2 mətn əsasında 10 açıq, 10 qapalı, riyaziyyat fənnindən riyazi bacarıqları yoxlamaq üçün 10 açıq, ümumilikdə, iki fənn üzrə 30 test tapşırığı təqdim edilib. Birinci mərhələdə imtahan müddəti 2 saat olub. İkinci mərhələdə imtahan iştirakçılarına sualları cavablandırmaları üçün 1 saat 30 dəqiqə vaxt veriləcək.

**Fatma BABAYEVA**

## Muxtar respublikada keçirilən növbəti iməciliklər mütəşəkkilliyi ilə yadda qalıb

***Aprelin 15-də keçirilən iməciliklər zamanı Naxçıvan şəhərinin sakinləri Naxçıvan Sənaye Kompleksinin yaxınlığındakı 1,2 hektarlıq yeni salınmış bağda 700 ədəd meyvə ağacı, həmin ərazidəki 1,5 hektarlıq püstə bağında bərpa məqsədilə 350 ədəd püstə ağacı, Uzunoba Su Anbarının yaxınlığındakı ərazidə 150 ədəd meyvə ağacı əkib, müəssisə və təşkilatların ərazilərindəki ağaclara aqrotexniki qulluq göstəriblər.***



Şərur rayonunda keçirilən iməciliklərdə də əhali fəal iştirak edib. Naxçıvan-Sədərək magistral yolunun Yuxarı Daşarx və Dizə kəndləri hissəsində 1800 ədəd meyvə, şəhərdə 1 hektarlıq ərazidə 40 min ədəd üzüm tingi əkilib.

Babək rayonunun sakinləri isə Sirab kəndinə gedən yolun kənarlarında 1000 ədəd meşə və 2000 ədəd meyvə ağacı əkib, yolun kənarlarındakı ağaclara aqrotexniki qulluq göstəriblər.

Ordubad rayonunda keçirilən iməciliklərdə rayon sakinləri Naxçıvan-Ordubad magistral yolunun "Əylis düzü" adlanan hissəsindəki 1 hektarlıq yeni salınmış bağda 550 ədəd meyvə, 200 ədəd bərpa məqsədilə meyvə, həmçinin 5 hektarlıq ərazidə 1500 ədəd gül kolu, kəndlərdə isə, ümumilikdə, 150 ədəd meyvə və 500 ədəd meşə ağacı əkiblər.

Culfa rayonunda keçirilən iməciliklərdə də fəallıq müşahidə olunub. Rayon sakinləri Darıdağ massivində, şəhərin bəzi yaşıllıq ərazilərində meyvə ağacları və qəbiristanlıqlarda həmişəyaşıl ağaclar olmaqla, ümumilikdə, 3 min 450 ədəd meyvə ağacı əkib, ağaclara aqrotexniki qulluq göstəriblər.

Kəngərli rayonunun sakinləri Böyükdüz kəndinin yol kənarlarında 500 ədəd meyvə, Böyükdüz kənd qəbiristanlığında 140 ədəd həmişəyaşıl ağac, Çalxanqala kəndinə gedən yolun kənarlarında bərpa məqsədilə 540 ədəd meyvə, Qarabağlar kənd qəbiristanlığında 241 ədəd həmişəyaşıl ağac, Qabıllı kəndində 6 min 500 ədəd üzüm tingi əkiblər.

Şahbuzlular Sələsüz kəndindəki 0,5 hektarlıq yeni salınmış bağda 460 ədəd, ümumilikdə, bərpa məqsədilə 110 ədəd meyvə ağacı əkib, müəssisə və təşkilatların ərazilərindəki yaşıllıqlara qulluq ediblər.

Sədərək rayonunda da iməciliklər mütəşəkkilliklə davam etdirilib, Naxçıvan-Sədərək magistral yolunun sağ hissəsindəki 1 hektarlıq ərazidə 600 ədəd meşə, magistral yolun kənarlarında bərpa məqsədilə 300 ədəd meyvə, Sədərək kənd qəbiristanlığında 220 ədəd həmişəyaşıl ağac əkilib.

Ümumilikdə, aprelin 15-də muxtar respublikada keçirilən iməciliklərdə 23 min 426 nəfər iştirak edib, 61 min 961 ədəd ağac və bəzək kolları, 2100 ədəd meşə ağacı, 11 min 260 ədəd meyvə ağacı, 601 ədəd həmişəyaşıl ağac, 1500 ədəd gül və bəzək kolları, 46 min 500 ədəd üzüm tingi əkilib.

Həmin gün muxtar respublikanın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik və abadlıq işləri aparılıb.

**Səbuhi HƏSƏNOV**

## Culfa Rayon Mərkəzi Xəstəxanasında bir gündə 63 cərrahiyyə əməliyyatı aparılıb

***Muxtar respublikamızın səhiyyə sistemində həyata keçirilən islahatların mühüm bir istiqaməti də əhaliyə göstərilən tibbi xidmətin əhatəsini genişləndirmək, bölgələrdə cərrahiyyə əməliyyatlarını təşkil etmək, müayinə və müalicə işlərini daha da yaxşılaşdırmaqdan ibarətdir. Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim və tibb işçiləri rayon mərkəzlərinin, qəsəbə və kəndlərin, eləcə də ucqar sərhəd və dağ yaşayış məntəqələrinin səhiyyə müəssisələrində yaradılmış imkanlar hesabına əhalinin tibbi müayinəsini və cərrahi əməliyyatları uğurla davam etdirirlər.***

Yeni quruculuq ünvanlarından olan Culfa Rayon Mərkəzi Xəstəxanasında da bir sıra cərrahi əməliyyatların aparılması üçün lazımi şərait yaradılıb. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim və tibb işçiləri ötən şənbə günü bu səhiyyə müəssisəsində 63 cərrahiyyə əməliyyatı aparıb, əhaliyə təmənnasız tibbi xidmət göstəriblər.

Həkim cərrahlardan Abasət Hüseynəliyev, İsa Abdullayev, İlhamə Əsgərova, Zeynəb Məmmədova, anestezioloqlar Ənvər Şıxəliyev, Aidə Məmmədova, Aidə Nəcəfova və orta tibb işçiləri ambulator müayinələr zamanı 107 xəstəyə tövsiyələrini veriblər. Cərrahi müdaxiləyə ehtiyacı olanlar üzərində uroloji, proktoloji qiqant yırtıq, öd kisəsi əməliyyatları aparılıb. Xəstəxanada ilk dəfə olaraq spinal anesteziya ilə yırtıq əməliyyatı aparılıb. Culfa rayonundakı Yaycı kənd sakini Sadıq Cəfərov üzərində aparılan bu əməliyyat uğurla başa çatdırılıb, xəstə birgünlük müşahidədən sonra evə buraxılıb. Ləkətağ kəndindən birinci qrup əlil Məmmədəli Məmmədov övladlarının başqa yerlərə getmədən, ərazidə yerləşən səhiyyə müəssisəsində pulsuz əməliyyat olunmasına görə minnətdarlıq edib. O, bütün bunları aztəminatlı ailələrdən olan xəstələrə dövlət qayğısı kimi dəyərləndirib.

Diaqnostika-Müalicə Mərkəzinin həkim və tibb işçiləri yerli həkimlərə tibbi avadanlıqlarla işləmə qaydalarını da öyrədiblər. Laboratoriyada ümumi analizlərin aparılması, infeksiyaların təyini, aparatların işləmə prinsipi yerli həkim və tibb işçilərinə izah edilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Naxçıvan şəhərində yerləşən İslam Hümbətov adına Uşaq-gənclər idman məktəbində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında yeniyetmələr arasında sərbəst güləş üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.***

## Güləş birinciliyinə yekun vurulub



Əvvəlcə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov çıxış edərək bildirib ki, birinciliyin keçirilmə məqsədi yeniyetmələri zərərli vərdişlərdən uzaqlaşdırmaq, onları sərbəst güləş idman növünə cəlb etməklə bu idman növünün inkişafına və kütləviliyinə nail olmaqdır. Sonra Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov yarışın keçirilmə qaydaları haqqında idmançılara geniş məlumat verib və yarışa start verilib.

Birincilikdə 10 çəki dərəcəsi üzrə 50-yə yaxın güləşçi öz qüvvəsini sınayıb. Beynəlxalq Güləş Federasiyasının mövcud qaydalarına əsasən keçirilən yarışda Mirsamir Seyidov, Turqay Allahverdiyev, Hüseyn Əhmədli, Kəramət Xudiyev, Abbas Nəzərəliyev, Turqut Abdullayev, Əli Əlioğlu, Fuad Məmmədov, Nurəddin Əliyev və Qoca Əhmədov müvafiq olaraq 35, 38, 42, 46, 50, 54, 58, 63, 69 və 76 kiloqram çəki dərəcələrində bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olublar.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılar Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları ilə mükafatlandırılıblar.

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 1 may 2017-ci ildə saat 10[00]-da hərraca çıxarılacaq dövlət nəfinə müsadirə edilmiş əmlaklar haqqında məlumat

| Sıra №-si | Müsadirə edilən əmlakın adı | Ölçü vahidi | Miqdarı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın 25 % güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 10 % həcmində hesablanmış behin miqdarı (manat) |
|---|---|---|---|---|---|---|
| 1. | Dairəvi qızıl sikkə | ədəd | 1 | 2018.25 | 1513.68 | 201.83 |
| 2. | Dördkünc qızıl sikkə | ədəd | 1 | 6500 | 4875 | 650.0 |
| 3. | Müxtəlif təsvirli dairəvi qızıl sikkə | ədəd | 1 | 2015 | 1511.25 | 201.5 |
| 4. | Müxtəlif təsvirli dairəvi qızıl sikkə | ədəd | 1 | 4032.60 | 3024.45 | 403.26 |
| 5. | Dairəvi qızıl sikkə | ədəd | 1 | 2017.60 | 1513.2 | 201.76 |
| 6. | Naxışlı qızıl sikkə | ədəd | 1 | 700.98 | 525.73 | 70.10 |
| 7. | "MAURİCE LACROIX" qol saatı | ədəd | 1 | 1700 | 1275 | 170.00 |
| 8. | "MAURİCE LACROIX" qol saatı | ədəd | 1 | 1400 | 1050 | 140.00 |
| 9. | "TİSSOT 1853" markalı qol saatı | ədəd | 1 | 1500 | 1125 | 150.00 |
| 10. | "TİSSOT 1853 AUTOMATİK" markalı qol saatı | ədəd | 1 | 1800 | 1350 | 180.00 |
| 11. | "LONGİNES" markalı 12 qaşlı qol saatı | ədəd | 1 | 1700 | 1275 | 170.00 |
| 12. | "Louis Erard AUTOMATİK" markalı qol saatı | ədəd | 1 | 1300 | 975 | 130.00 |
| 13. | "VERTU" markalı mobil telefon | ədəd | 1 | 8500 | 6375 | 850.00 |

Məlumat dərc olunduğu gündən hərracda iştirak etmək istəyən hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlaklara sifariş vermək üçün Auksion Mərkəzinə müraciət edə bilərlər. Hərraclarda alıcı hesab edilən sifarişi və digər zəruri sənədləri təqdim etmiş, satılan əmlakın ilkin satış qiymətinin 10 faiz həcmində beh Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin AZ21NABZ12360100000000005944 nömrəli hesabına ödəmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

Sifarişlər və aşağıdakı sənədlər Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzində (Atatürk prospekti 42) 28 aprel 2017-ci tarixdə hərrac keçirilməsinə ən azı 3 bank günü qalanadək qəbul olunacaqdır:

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti;*

*- Maliyyə Nazirliyinin hesabına ödənilmiş 10 faiz behin hesaba keçirilməsini təsdiq edən sənədlərin surəti.*

Hərrac 1 may 2017-ci il tarixdə, saat 10[00]-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz. Əlaqə telefonu: 545-01-38***

## Karate-do üzrə kəmər imtahanı keçirilib

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində karate-do üzrə kəmər imtahanı keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Karate-do Federasiyasının birgə təşkil etdiyi imtahanda muxtar respublikanın şəhər və rayonlarından 50-dən çox idmançı iştirak edib.***

Reqlamentə əsasən, idmançılar kəmər imtahanında kixon, kumite və kata üzrə bacarıqlarını nümayiş etdiriblər.

Kəmər imtahanı Bakı şəhərindən dəvət olunmuş Azərbaycan Respublikasının Əməkdar məşqçisi Hidayət Şabanov və Karate-do Federasiyasının sədr müavini Nəriman Quliyev tərəfindən aparılıb. İmtahan ərzində idmançılara bu növ üzrə məlumatlar verilib, tətbiq olunan yeni qaydalar haqqında fikir mübadilələri aparılıb.

Qeyd edək ki, sonra 31 idmançı müxtəlif kəmər dərəcələrinə layiq görülüblər.

## Rayon mərhələsinin qalibi müəyyənləşib

*Kəngərli rayon mərkəzində yerləşən futbol meydançasında rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəngərli Rayon Şöbəsinin birgə təşkilatçılığı ilə rayonun ümumtəhsil məktəbləri arasında yaz çağırışına həsr edilmiş "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyünün Kəngərli rayon mərhələsi keçirilib.*

Bu mərhələdə 8 komanda mübarizə aparıb. Yarış əsasnaməyə uyğun olaraq 5 növ üzrə keçirilib.

Əvvəlcə rayon Gənclər və İdman İdarəsinin rəisi Vüsal Hüseynov, Təhsil Şöbəsinin əməkdaşı Səməd Səmədov çıxış edərək yeniyetmə və gənclərə göstərilən dövlət qayğısından, idmanda əldə olunan nailiyyətlərdən, gənclərin vətənpərvərlik ruhunda böyüməsi istiqamətində görülən işlərdən danışıblar. Çıxış edənlər yarış iştirakçılarına uğurlar arzulayıblar.

Yarışın yekun nəticəsinə əsasən, Qıvraq qəsəbə tam orta məktəbinin komandası bütün rəqiblərini qabaqlayaraq qalib adını qazanıb. Yurdçu kənd tam orta məktəbinin komandası ikinci, Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin komandası isə üçüncü olub.

Yekunda qalib komanda və müxtəlif növlərdə fərqlənən idmançılara təşkilatçılar tərəfindən diplomlar təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Naxçıvan şəhəri, C.Məmmədquluzadə küçəsində yerləşən əmlak kompleksinə dair 000036 nömrəli mülkiyyət hüququ haqqında şəhadətnamə itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 306